**Vergi orqanlarında işə qəbul üzrə test imtahanları keçirilmişdir**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası vergi orqanlarına işə qəbul olunmaq istəyən namizədlər üçün dekabrın 2-də test imtahanı keçirmişdir. İmtahanlar Bakı Dövlət Universiteti və Azərbaycan Texniki Universitetinin tədris binalarında təşkil olunmuşdur.

Vergilər Nazirliyi İnsan resursları idarəsinin Planlaşdırma şöbəsinin rəisi Kamran Məmmədov jurnalistlərə müsahibəsində müsabiqənin Azərbaycan Respublikası Prezildentinin 15 aprel 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin müddəalarına uyğun təşkil edildiyini bildirmişdir. Bununla sayca 8-ci müsabiqənin keçirildiyini xatırladan K.Məmmədov, ümumilikdə, indiyə qədərki müsabiqələr nəticəsində 750 nəfərin işlə təmin olunduğunu diqqətə çatdıraraq demişdir ki, növbəti müsabiqədə ərazi vergilər idarələri və rayon vergilər şöbələri də daxil olmaqla, 34 vakant iş yerinə nazirliyin rəsmi internet səhifəsində onlayn ərizə qəbul edilmişdir. İmtahanda iştirak üçün 2367 nəfər müraciət etmiş, onlardan 2138-nin sənədləri qəbul olunaraq imtahana buraxılmışdır. 229 nəfərin isə yaşı və ixtisası müvafiq tələblərə uyğun olmadığından, onlar müsabiqəyə buraxılmamışlar. 273 nəfər müəyyən səbəblərdən test imtahanına buraxılış vərəqələrini götürməmişdir. İmtahanlarda 1716 nəfər iştirak etmiş və onlardan 541 nəfəri birinci mərhələdən keçmişdir.

K.Məmmədov qeyd etmişdir ki, birinci mərhələdə uğur qazanmış namizədlər müsabiqənin növbəti mərhələsində öz biliklərini Vergilər Nazirliyinin Müsabiqə Komissiyası qarşısında nümayiş etdirəcəklər. Bu mərhələdən də uğurla keçən namizədlər vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə edəcəklər.

S.MUSTAFAYEV